# Prokurorluğun, o cümlədən Hərbi Prokurorluğun uğurları davam edir

***2024**-cü il xalqımız və dövlətimiz üçün uğurlu illərdən biri kimi tarixə düşmüşdür. Hər şeydən əvvəl, onu qeyd edim ki, ötən il həm xalqımızın, həm də dövlətimizin ən böyük uğuru ölkə rəhbəri cənab İlham Əliyevin seçicilərin mütləq səs çoxluğu ilə 7 fevralda yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi olmuşdur. Həmin gün xalq növbəti dəfə doğru seçim edərək, ulu öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən, son 20 il ərzində dövlətini daha da qüdrətləndirən və əhalinin rifahını yüksəldən, verdiyi bütün vədləri layiqincə yerinə yetirən, hər bir azərbaycanlının Prezidenti olan dünyaşöhrətli nəhəng tarixi şəxsiyyətə və bununla da Azərbaycanın firavan istiqbalına səs verdi. Beləliklə də respublikamızın uğurlarının yeni mərhələsi başladı.*

Möhtərəm Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 21 il ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında müvəffəqiyyətlə icra edilməsi, müxtəlif istiqamətlər üzrə köklü islahatların aparılması, abadlıq-quruculuğun həyata keçirilməsi və bütün sahələrdə tərəqqi prosesinin vüsət alması ilə səciyyələnir. Transmilli layihələrin gerçəkləşməsi, iqtisadiyyata irihəcmli sərmayələrin yatırılması ölkəmizin strateji maraqlarını təmin etmişdir. Əməkdaşlıqda bərabərhüquqlu tərəfdaş prinsipi prioritet seçildiyindən, ölkəmiz regionun və dünyanın böyük iqtisadi layihələrinin əsas iştirakçılarından birinə və ən əsası etibarlı tərəfdaşa çevrilmişdir.

Dünyada gedən neqativ proseslərə, postpandemiya dövrünə, eləcə də müharibədən yeni çıxmış dövlət olmasına rəğmən, liderimizin dühası və xalqımızın əzmkarlığı sayəsində Azərbaycan ötən il də sürətli inkişaf tempini qoruyub saxlamış, daha da qüdrətlənmiş, iqtisadiyyatını uğurla şaxələndirmiş, əhalinin rifahı yaxşılaşmışdır. Onu da qeyd edək ki, dövlətimizin hərtərəfli qüdrətlənməsinə və əldə olunan ardıcıl uğurlara, eləcə də beynəlxalq əlaqələrimizin inkişaf etdirilməsinə müdrik düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik, hər bir məqamda möhtərəm Prezidentin və xalqın yanında olan Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə dəstək olur.

Ötən ilin uğurlarından bəhs edərkən, nəinki ölkədaxili, eləcə də qlobal əhəmiyyətli ən mühüm hadisələrdən birinin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) noyabr ayında uğurla baş tutmasını xüsusi qeyd etmək lazımdır. Məlum olduğu kimi, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim töhfələr vermiş Azərbaycanda Prezident cənab İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli sərəncamına əsasən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edildi. Eyni zamanda 2023-cü ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycan COP29-a ev sahibi seçildi. 2024-cü ilin noyabr ayında isə 80-i prezident, vitse-prezident və baş nazir olmaqla, 197 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 76 mindən artıq şəxsin iştirakı ilə sözügedən tədbir müvəffəqiyyətlə keçirildi. Bu, təbii ki, möhtərəm cənab Prezidentimizin mükəmməl xarici siyasətinin, dünya siyasi arenasındakı yüksək nüfuzunun təcəssümü idi.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq müsbət imicini bir daha nümayiş etdirdi. Rəsmi Bakı noyabrın 11-də başlayan və qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etmişdi. Azərbaycan genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksək səviyyəli təşkilatçılıq qabiliyyətini göstərdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir.

Ötən ilin ən böyük uğurlarından biri Qazaxın 4 kəndinin bir güllə belə atılmadan, qan tökülmədən, diplomatik yolla və vasitəçisiz qaytarılmasıdır. Göründüyü kimi, ölkəmizin uğurlarını saymaqla bitmir və sadalananlara saysız-hesabsız əlavələr etmək olar.

Dövlətimizin uğurları təbii olaraq Prokurorluğa da sirayət etmişdir ki, bu da fəaliyyətin effektivliyinə rəvac vermişdir. Əvvəlki illər kimi, 2024-cü il də Prokurorluğun, o cümlədən Hərbi Prokurorluğun mütərəqqi dövrü kimi səciyyələnir. Belə ki, qanunvericiliyin tələblərindən, eləcə də cənab Prezidentin göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələr layiqincə yerinə yetirilmiş, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyəti yüksəldilmiş, müasir məzmunlu islahat tədbirləri intensivliklə davam etdirilmiş, o cümlədən yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, həmçinin prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə prokurorluğun sağlam mənəviyyata və yüksək biliklərə malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Ötən il prokurorluğun tarixində bir sıra mühüm əlamətdar hadisələr baş vermişdir ki, onlardan bir neçəsini sadalamaq yerinə düşər. İlk olaraq dərin minnətdarlıq hissləri ilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2024-cü il Sərəncamı ilə 14 prokurorluq, o cümlədən hərbi prokurorluq işçisi - onlardan 3-ü "Tərəqqi", 11-i "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" medalları ilə təltif edilmişdir. Bundan başqa, dövlət başçısı tərəfindən 5 prokurorluq işçisinə təşəkkür elan olunmuşdur. Bütün bunlar təbii ki, prokurorluq işçilərini qürurlandırmaqla bərabər, onların məsuliyyət hisslərini daha da artırmışdır. Prokurorluq üçün olduqca mühüm əhəmiyyət kəsb edən hadisələrdən biri də uğurla baş tutmuş dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan, 177 ölkədən 350 mindən artıq prokuroru birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransının və Ümumi Yığıncağının 29 sentyabr - 2 oktyabr tarixlərində 95 dövlətdən 500-ə yaxın iştirakçı ilə Azərbaycanda keçirilməsi olmuşdur. Belə bir mötəbər tədbirin yüksək səviyyədə təşkil olunması və iştirakçıların həm konfransın səmərəliliyi, həm də qonaqpərvərlik baxımından məmnunluğu prokurorluq işçilərinin Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə təqdirəlayiq fəaliyyətinin növbəti əyani sübutu idi. Bu tədbir sözsüz ki, prokurorluğun beynəlxalq əlaqələrinin daha da inkişafını və şaxələndirilməsini şərtləndirəcək. Prokurorluq üçün önəmli hadisələrdən biri də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Mavi Zonada keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyaya prokurorluğun verdiyi töhfələr, o cümlədən Kamran Əliyevin dərin və məzmunlu nitqi, eləcə də sessiyada diskussiyalar zamanı hüquq-mühafizə orqanlarının ekoloji cinayətkarlığa, ekoloji terrora qarşı mübarizə üsulları, iqlim dəyişikliyində müsbət tendensiyaların müzakirəsi zamanı prokurorluq işçilərinin fəal iştirakı olmuşdur. Təbii ki, 2020-ci ildən Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə başlayan prokurorluğun bütün istiqamətlər üzrə uğurlu fəaliyyəti davam etdirilir.

Onu da qeyd etmək lazımdır ki, ötən il Hərbi Prokurorluq orqanlarının fəaliyyəti də səmərəli və effektiv olmuşdur. Belə ki, Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevin rəhbərliyi ilə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, vətəndaş məmnunluğunun artırılması, eləcə də Hərbi Prokurorluğun beynəlxalq əlaqələrinin artırılması istiqamətində mühüm işlər görülmüşdür.

Cinayət işlərinin başlanmasının qanuniliyinə xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 98,8 faizi açılmışdır.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, 2005-ci ildə ədliyyə general-leytenantı Xanlar Vəliyev hərbi prokuror təyin edildikdən sonra, əvvəlki illərdə də Silahlı Qüvvələrdə 1992-2004-cü illərdə törədilmiş qəsdən adam öldürməyə cəhd, qəsdən adam öldürmə və digər ağır, xüsusilə ağır cinayət hadisələri ilə bağlı həmin dövrdə başlanılmış, uzun müddət istintaq aparılmasına baxmayaraq, səriştəsizlik və bəzi hallarda isə yarıtmaz fəaliyyət ucbatından iş üzrə ibtidai araşdırmanın yekunlaşdırılması mümkün olmadığından təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməməsi əsası ilə icraatı dayandırılmış cinayət işlərinin təcrübəli əməkdaşlar tərəfindən öyrənilməklə, bir neçəsi üzrə icraatın təzələnərək ibtidai istintaqın davam etdirilməsi, yekun qərarların qəbul olunması, bununla da ibtidai araşdırmanın qurtarması təmin edilmişdir. Belə ki, icraatı təzələnmiş işlər üzrə düzgün və səmərəli aparılmış istintaq hərəkətləri, işçilərin peşəkarlığı və prinsipallığı, eləcə də yüksək məharətlə həyata keçirilmiş prosessual rəhbərlik sayəsində 25-dən artıq cinayət işinin ibtidai araşdırmasının yekunlaşdırılmasına, o cümlədən cinayət törətmiş şəxslərin ifşa olunmasına, faktlara və şəxslərin əməllərinə hüquqi qiymət verilməsinə nail olunmuşdur. 2025-ci ilin yanvar ayında Hərbi Prokurorluq tərəfindən qeydə alınmış cinayətlərin 100 faizi açılmışdır.

Onu da qeyd etmək lazımdır ki, Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin, həmçinin birgə görülmüş tədbirlərin nəticəsində 2023-cü illə müqayisədə 2024-cü ildə qeydə alınmış cinayətlər əvvəlki illə müqayisədə ümumilikdə 19,3 faiz, qeyri-hərbi cinayətlər 21,5 faiz hərbi xidmət əleyhinə olan cinayətlər isə 17,5 faiz azalmışdır.

Bu istiqamətdə birgə səmərəli fəaliyyətin müsbət nəticələri bu ilin yanvar ayında da özünü göstərmişdir. Belə ki, 2024-cü ilin eyni ayı ilə müqayisədə, 2025-ci ilin yanvar ayında qeydə alınmış vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma cinayətləri 77,8 faiz və rüşvət alma və rüşvət vermə cinayətləri 31,6 faiz azalmış, həmçinin sözügedən dövrdə əmri icra etməmə, fərarilik, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma, maşınları idarəetmə və istismar qaydalarını pozma, qəsdən sağlamlığa ağır zərər vurma və qəsdən adam öldürmə cinayətləri isə ümumiyyətlə qeydə alınmamışdır.

Müsbət tendensiyanın davamlılığında Hərbi Prokurorluq işçilərinin mütəmadi olaraq hərbi hissələrə olan səfərlərinin, hərbi qulluqçularla görüşlərinin, eləcə də birgə təşkil etdikləri tədbirlərin, o cümlədən hüquqi və vətənpərvərlik xarakterli maarifləndirici işlərin də mühüm rolu olmuşdur. Əvvəlcə qeyd etmək lazımdır ki, hər zaman olduğu kimi, ötən ildə də hərbi qulluqçularla görüşmək, onların xidmət və yaşayış şəraiti, eləcə də qayğı və problemləri ilə maraqlanmaq məqsədilə hərbi prokuror Xanlar Vəliyevin Silahlı Qüvvələrin müvafiq rəhbər vəzifəli şəxsləri ilə birlikdə hərbi hissə və bölmələrə bir neçə səfəri baş tutmuşdur.

Bundan başqa, eyni məqsədlə Hərbi Prokurorluğun işçiləri, o cümlədən respublika hərbi prokurorunun müavinləri, böyük köməkçiləri, idarə, şöbə rəisləri, ərazi hərbi prokurorları və digər əməkdaşlar da aidiyyəti dövlət qurumlarının müvafiq yüksəkvəzifəli şəxsləri ilə birlikdə hərbçilərlə görüşmək məqsədilə müntəzəm olaraq müvafiq hərbi hissələrə səfərlər etmişlər. Bütün görüşlər zamanı hərbi qulluqçuların milli və döyüş ruhunun daha da yüksəldilməsi, onlarda vətənpərvərlik hisslərinin dərindən aşılanması, hüquqi biliklərin artırılması istiqamətində söhbətlər aparılmış, verilən suallar ətraflı cavablandırılmış, şəxsi heyətin hərtərəfli maarifləndirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi təmin edilmiş, eyni zamanda xidməti vəzifələrini nümunəvi icra edənlər müxtəlif hədiyyələrlə mükafatlandırılmışdır.

O da qeyd edilməlidir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə, "Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar" Tədbirlər Planının müvafiq bəndinin icrası ilə bağlı, eləcə də COP29-un mahiyyəti və əhəmiyyəti barədə və hüquqi maarifləndirmə ilə əlaqədar Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin yüksəkrütbəli hərbi qulluqçularının, eləcə də müxtəlif dövlət qurumlarının, şəhər və rayon rəhbərliklərinin iştirakı ilə müvafiq hərbçilərlə birlikdə 21 tədbir keçirilmişdir. Vurğulanmalıdır ki, həmin tədbirlərin üçündə hərbi prokuror Xanlar Vəliyev şəxsən iştirak etmişdir.

Hərbi Prokurorluğun digər dövlətlərin prokurorluqları ilə qarşılıqlı səmərəli əməkdaşlığı da daim diqqət mərkəzində saxlanılmışdır. Əvvəllər, eləcə də 2024-cü ildə hərbi prokuror Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiya Federasiyasına, bir müddət öncə isə Rusiya Federasiyasının Baş Hərbi prokuroru Valeri Petrovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına rəsmi səfərləri Azərbaycan və Rusiya prokurorluqları, o cümlədən hərbi prokurorluqları arasında hər zaman mövcud olan sıx işgüzar əlaqələrin və isti münasibətlərin yeni müstəvidə uğurla davam etməsinə, daha da möhkəmləndirilməsinə və dərinləşdirilməsinə rəvac vermişdir.

Belə ki, ədliyyə general-leytenantı Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyası baş prokurorunun müavini - Rusiya Federasiyasının baş hərbi prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Valeri Georgiyeviç Petrovun dəvəti ilə 19-24 may 2024-cü il tarixlərində Rusiya Federasiyasına rəsmi səfər etmişdir. Səfərin ilk 2 gününü Moskva şəhərində keçirmiş nümayəndə heyəti Rusiya Federasiyasının Baş Hərbi Prokurorluğunda bir sıra tədbirlərdə iştirak etmişdir. Baş hərbi prokuror V.G.Petrov və digər rəhbər vəzifəli şəxslərin iştirakı ilə dəyirmi masa ətrafında keçirilmiş görüş zamanı V.G.Petrov ölkələrimiz arasında olan yaxın dostluq münasibətlərindən və bu münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsindən, o cümlədən hər iki dövlətin hərbi prokurorluqları arasında olan sıx əməkdaşlığın mühüm əhəmiyyət kəsb etməsindən, daha da dərinləşməsindən bəhs etmişdir. Hərbi prokuror Xanlar Vəliyev isə dövlətlərimiz arasında olan doğma münasibətlərin yaranmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini və hazırda dövlət başçılarının səmimi münasibətləri uğurla davam etdirdiklərini, xalqlarımız arasında olan bağlılığı vurğulayaraq, hər iki hərbi prokurorluğun arasında olan əməkdaşlığın hərbi prokuror V.G.Petrovun təşəbbüsü ilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun nümayəndə heyətinin 2018-ci ildə Rusiya Federasiyasına səfərindən sonra başladığını, qarşı tərəfin nümayəndə heyətinin 2019-cu ildə Azərbaycana səfəri ilə davam etdiyini və hazırda daha da möhkəmləndiyini qeyd etmişdir. Səfər zamanı tərəflər arasında hər iki ölkənin qanunvericiliyi, onun icra vəziyyəti, təkmilləşdirilməsi, habelə sülh və insanlıq əleyhinə, terrorçuluq, eləcə də digər cinayətlərin istintaq taktikası, ibtidai araşdırma prosesində ortaya çıxan problemlər, onların həlli yolları, həmçinin bu qəbildən olan cinayətlərə qarşı mübarizə üzrə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Rusiya Federasiyasında rəsmi səfərdə olan nümayəndə heyəti V.G.Petrovun, onun müavini ədliyyə general-leytenantı S.A.Zaryayevin və digər rəhbər vəzifəli şəxslərin müşayiəti ilə Mərkəzi Hərbi Dairənin Kazan Qarnizonu Hərbi Prokurorluğunun nümunəsində Rusiya Federasiyasının Hərbi Prokurorluq orqanları sisteminə daxil olan qarnizon hərbi prokurorluqlarının strukturu, fəaliyyəti və iş prinsipləri ilə yaxından tanış olmaq, eləcə də təcrübə və fikir mübadiləsi aparmaq məqsədilə, həmçinin Rusiya Federasiyasının Tatarıstan Respublikasında olmuşlar.

Səfər çərçivəsində Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov qəbul zamanı ölkələrimiz və xalqlarımız arasında olan doğmalıqdan, yaxın dostluq münasibətlərindən və bu münasibətlərin daha da dərinləşməsindən, Azərbaycanın dövlət başçısı ilə aralarında olan səmimiyyətdən, eləcə də dövlətlər arasındakı əlaqələrin genişlənməsində və yüksələn xətt üzrə inkişaf etməsində Rusiya Federasiyasının və Azərbaycan Respublikasının dövlət başçılarının gördüyü müstəsna işlərdən bəhs etmişdir. Ədliyyə general-leytenantı Xanlar Vəliyev isə xalqlarımız arasında olan qardaşlıq münasibətlərindən, bu münasibətlərin daha da möhkəmlənməsindən, 17 iyun 2023-cü il tarixdə Zəngilan rayonunun Ağalı kəndində baş tutan görüşü xatırladaraq Prezident İlham Əliyevlə Rüstəm Minnixanovun bir-birinə olan qarşılıqlı rəğbətindən danışaraq, eyni zamanda Vladimir Putinlə cənab İlham Əliyev arasında olan səmimi münasibətləri xüsusi vurğulamışdır.

İstər R.N.Minnixanov, istərsə də V.G.Petrovla görüş zamanı hərbi prokuror Xanlar Vəliyev Azərbaycanın son illər ərzində əldə etdiyi misilsiz uğurlarda bəhs edərək bildirmişdir ki, ümummilli liderin müdrik siyasətini müasir müstəvidə davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ən yeni tarixi uğurlarla səciyyələnmiş, onun dühası və qətiyyəti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi, xalqın əzmkarlığı, Silahlı Qüvvələrimizin qüdrəti və hərbçilərimizin qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində 30 ilə yaxın müddətdə işğalda olan dədə-baba torpaqlarımız azad edilmiş, bir sutkadan az müddət ərzində davam edən lokal xarakterli antiterror əməliyyatlarının nəticəsində tarixi ərazilərimiz erməni quldurlarından təmizlənmiş və beləliklə, ərazi bütövlüyümüz bərpa olunmuş, erməni vandalizminə məruz qalmış ərazilərdə ölkə rəhbərinin və birinci xanımın şəxsi nəzarətləri və qayğıları ilə abadlıq-quruculuq işləri həyata keçirilir. Azərbaycan Respublikası Hərbi Prokurorluğunun digər dövlətlərin aidiyyəti qurumları ilə qarşılıqlı işgüzar münasibətləri uğurla davam etdirilir.

Sözsüz ki, yuxarıda sadalananlar Azərbaycan Respublikası Hərbi Prokurorluğun 2024-cü ildəki fəaliyyətini tam ehtiva etmir və qeyd olunan dövr ərzində, Hərbi Prokurorluq orqanları tərəfindən qanunun aliliyi prinsipi rəhbər tutulmaqla başqa işlər də görülmüş, eləcə də insan hüquqlarının etibarlı müdafiə olunması, cinayətkarlığa və digər qanun pozuntularına qarşı ciddi mübarizə aparılması üçün müxtəlif zəruri tədbirlər həyata keçirilmişdir.

Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Prokurorluğun, o cümlədən hərbi prokuror Xanlar Vəliyevin rəhbərliyi ilə Hərbi Prokurorluğun hərtərəfli uğurları yüksək intensivliklə davam edir. ■



**Firad ƏLİYEV,**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, Baş ədliyyə müşaviri.**